# Ziyalı sözü

## (Sumqayıt ziyalılarının ürək sözləri)

### REDAKTORDAN

**2023-cü il oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sumqayıt şəhərinə gəlişi təkcə tarixi hadisə yox, həm də böyük bayramı kimi qarşılandı. Bu ilin sentyabr ayının 19-dakı son qələbəmizdən sonra onun ilk gəlişi məhz Sumqayıt şəhərinə oldu. Bu da bir növ iqtisadiyyat, sosial sahədə bir qələbə idi. Belə ki, ölkə başçımız Sumqayıt Kimya Sənayesi Parkında "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlini qoydu. "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin, "Universal Qablaşdırma Sənayesi" QSC-nin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin və "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışında iştirak etdi. "Kartaş Kimya" MMC-nin müxtəlif Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməlini qoydu.**

Bundan sonra çox sevindirici haldır ki, "Novus Plastica" MMC tərəfindən "SOCAR Polymer" MMC-nin və "Azərikimya" İstehsalat Birliyinin məhsullarından xammal kimi istifadə olunacaq. Sonra Prezident İlham Əliyev "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışında da oldu və dövlətimizin rəhbəri müəssisəni işə saldı.

Prezident İlham Əliyev"Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsində yaradılan şəraitlə tanış oldu. Bu müəssisənin rəhbərlərilə maraqlı söhbətlər apardı.

Cənab Prezident yenidən qurulan Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yaradılan şəraitlə də yaxından tanış oldu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlətimizin başçısına stadionda görülən işlər barədə ətraflı məlumat verdi. Onu da vurğulayaq ki, Mehdi Hüseynzadə adına Sumqayıt *şəhər stadionunun yenidən qurulmasına* Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli Sərəncamına əsasən 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə, bu iş 2022-ci ildə başa çatdırılıb. Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb. Bu gün stadion həqiqətən də göz oxşayır.

Çox sevindirici haldır ki, son illər ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək göstəricilər əldə edir, üçrəngli Bayrağımızı ucaldırlar. Bütün bunlar göstərir ki, ölkəmizdə idmanın inkişafının və onun kütləviliyinin təmin olunması istiqamətində dövlət siyasəti uğurla davam etdirilir. Bu diqqət və qayğı həm də yeni nəslin sağlam ruhda böyüməsinə, gənclərin idmana marağının artırılmasına yönəlib ki, belə idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin həyata keçirilməsində çox mühüm rol oynayır. Eləcə də 44 günlük Vətən müharibəsində, 2023-cü il 19 sentyabr tarixindəki 24 saatlıq lokal xarakterli müharibədə əsgərlərimizin fiziki hazırlığının çox yüksək, möhkəm olması bunu tam sübut elədi.

Ölkə rəhbəri 2 nömrəli Sumqayıt şəhər Xəstəxanasının yeni binasının açılışında da iştirak etdi. Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə ətraflı məlumat verdi və bildirdi ki, "150 çarpayılıq xəstəxananın bina və qurğuları 6,1 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 18 min 288,4 kvadratmetrdir. O, qeyd etdi ki, səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb.

Dövlət başçısının Sumqayıta növbəti gəlişi şəhər ictimaiyyəti və əsasən də ziyalılar tərəfindən çox maraqla qarşılandı. Belə qərara gəldim ki, şəhərin bir qrup ziyalısı ilə görüşüm və onların fikirlərini, ürək sözlərini çoxminli oxucularımıza çatdırım.

**Dövlət mükafatı laureatı, Prezidentin Fərdi Təqaüdçüsü, Əməkdar mühəndis, Kimya üzrə fəlsəfə doktoru, Sumqayıt şəhər Ağsaqqallar Şurasının sədri Təbrik Quliyev:**

**-Mən ömrümün böyük hissəsini Sumqayıtın kimya sənayesinin inkişafına sərf etmişəm. Uzun illər kimya müəssisələrinin rəhbəri olmuşam. Ulu** Öndər Heydər Əliyevin birinci və ikinci hakimiyyəti dövrlərində bu şəhərdə məsul vəzifələrdə çalışmışam. Yadıma gəlir ki, dahi rəhbərin Sumqayıta hər bir gəlişi bu şəhərdə sənayenin, sosial sahənin, eyni zamanda, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafına böyük təkan verirdi.



Yadınıza salmaq istəyirəm ki, Heydər Əliyev birinci dəfə hakimiyyətə gəlməmişdən əvvəl Azərbaycan keçmiş SSRİ məkanında bütün sahələrdə digər respublikalardan geri qalmış bir ölkə idi. Dahi şəxsiyyət hakimiyyətə gələn kimi Azərbaycanın bütün bölgləri kimi, Sumqayıta da xüsusi diqqət ayırdı. Bu şəhərdə kimya və metallurgiya sənayesinə böyük təkan verdi. Və çox maraqlıdır ki, o, özü kimyaçı olmasa da kimyəvi maddələrin tərkibini və təsirini əla bilirdi. O vaxtkı Kimya zavodunda və sonralar Səthi Aktiv Maddələri müəssisəsində SSRİ rəhbərliyinin əmrilə Lindan deyilən bir İstehsalat müəssisəsi tikilməli idi. 1975-ci ildə Ulu Öndər göstəriş verdi ki, həmin İstehsalat müəssisəsi tikilməsin. Çünki insanlar üçün həm çox zərərlidi, həm də atmosferi hədsiz korlayacaq. Bu baxımdan həmin İstehsalatın tikintisi dayandırıldı. Sonra Ulu Öndər Moskvaya SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsinə işə gedəndən sonra Azərbaycan Mərkəzi Komitəsində qərar qəbul olundu və başladılar həmin Lindan İstehsalatını tikməyə. Müəssisə cəmi altı ay işlədi və insanlarda çox ağır xəstəliklər əmələ gətirdi. Dahi Heydər Əliyevə məlumat çatanda ki, həmin İstehsalat tikilib və işləyir, Sovetlər İttifaqının rəhbərlərindən biri olduğuna görə öz səlahiyyətlərindən istifadə edib, bu məsələni SSRİ dövlət rəhbərləri qarşısında qaldırdı, istehsalatı ləğv elətdirdi. Bu da Ulu Öndərin həmvətənlərinə qayğıkeş münasibətindən irəli gəlirdi ki, sağalmaz peşə xəstəliklərinə düçar olunmasınlar. Vaxtilə Azərbaycan sənayesində neqativ hallar olan onlarla belə bariz nümunə göstərmək olar. Mən bunların canlı şahidiyəm.

Ümummilli Lider ikinci dəfə hakimiyyəti zamanı Yaponiyada olanda, onunla birlikdə bu ölkəyə gedən "Azərikimya" Şirkətinin o vaxtkı prezidenti Fikrət Sadıxovdan soruşur ki, " Azərbaycan kimya sənayesində nə çatışmır? Hansı problemlər var?" Fikrət Sadıxovda deyir ki, " cənab Prezident hər şey qaydasındsadır, amma enerji sahəsində hərdən-bir problemlərimiz olur". Elə həmin dəqiqə Ulu Öndər orada məsələ qaldırır və Buxar Generatoru qurğusu ilə bağlı layihəyə qol çəkilir və razılaşdırılır ki, bu qurğu yaponlar tərəfindən Sumqayıtda quraşdırılsın. Beləliklə, Sumqayıtdakı Etilen-Propilen zavodunda həmin qurğu yaponlar tərəfindən işə salındı və artıq kimya sənayesinin özünün fasiləsiz enerji mənbəyi həll olundu. Bununla da kimya sənayesi respublikamıza böyük gəlirlər gətirməyə başladı.

Ulu Öndər Sumqayıtda on altı dəfə olmuşdu. Onun hər gəlişindəki görüşlərdə şəxsən iştirak etmişəm. Və hər dəfə Sumqayıt rəhbərlərinə, bizə tapşırıqlar verirdi. Amma bu tapşırıqların icrası üçün bir il bəs eləmirdi. Cəmi 45-50 dəqiqəlik çıxışında elə mükəmməl məsələləri- proqramı qarşımıza qoyurdu ki, onları bir ilə yerinə yetirə bilmirdik. Ulu Öndərimiz kimi, cənab İlham Əliyevin də qarşımıza qoyduğu proqramlar, planlar sumqayıtlıların rifahı naminədir. Hər gəlişində şəhərin inkişafı üçün maddi vəsait ayırır və verilən maliyyənin düzgün xərclənməsinə nəzarət edir. Ölkə başçımız otuz ikinci dəfə, oktyabr ayının 23-də Sumqayıtda oldu.

Sevimli Prezidentimizin, Qarabağın xilaskarının şəhərimizə hər gəlişi həm böyük bayram və həm də tarixi hadisədir. Sumqayıtı yenidən nəhəng sənaye şəhərinə çevirmək və buradan gələn gəlirlə düşməndən azad olunan ərazilərimizin bərpasına, quruculuğuna köməklik etmək qarşıya qoyulan məqsədlərdəndir. İnanıram ki, bütün bu layihələr tezliklə reallaşacaqdır.

Xüsusilə vurğulamaq istəyirəm ki, işimlə əlaqədar bir çox xarici ölkələrdə olmuşam. Mübaliğəsiz deyə bilərəm ki, Sumqayıt bu gün dünyanın ən gözəl şəhərlərindən biridir.

**Ömrünü Sumqayıtın, Abşeronun quruculuğuna həsr edən dəyərli ziyalı, Abşeron Mənzil İstehsalat Təsərrüfatına on beş il, Bakı şəhər İcra Hakimiyyətinin 7 nömrəli Təmir-Tikinti idarəsinə on bir il rəhbərlik etmiş, iki çağırış Abşeron rayon İcraiyyə Komitəsi şəhər sovetinin deputatı olmuş, Müharibə, Əmək və Silahlı Qüvvələr Təşkilatının Sumqayıt Şurasının sədri Sovet Şükürov:**

-Həyatımın böyük hissəsini tikinti quruculuğuna və gənc nəslin inkişafına,



tərbiyəsinə həsr etmişəm. Mənə elə gəlir, Sumqayıt məmləkətimizdə yeganə regiondur ki, burada yaşayan insanlar öz şəhərini çox sevir və onun quruculuğuna əlindən gələn köməklikləri edirlər. Sumqayıt bu gün İcra Hakimiyyəti başçısı Zakir Fərəcovun sayəsində özünün yeni intibahını yaşayır və gündən-günə gözəlləşir. Ümidvaram ki, cənab Prezidentimiz İlham Əliyevin bu dəfəki gəlişi də şəhərimizin inkişafına, quruculuğuna çox böyük köməklik edəcək. Biz veteranlar da şəhərimizin inkişafı üçün nə lazımsa eləməyə hazırıq. İnanıram ki, tezliklə şəhərimizdə işsizlik problemi tam həll ediləcəkdir. Qarabağımızda tikinti, quruculuq işləri də tezliklə başa çatacaq. O diyarımız cənnətməkan yer olacaq.

Çox sevinirəm ki, Müharibə, Əmək və Silahlı Qüvvələr təşkilatındayam və bu təşkilatın üzvləri xalqımızın tarixində çox böyük, tarixi səhifələr yazıblar.

Biz də bir veteran kimi əlimizdən gələni edirik ki, gənc nəslə düzgün yol göstərək və onları narkomaniyadan, pis vərdişlərdən qoruyaq. Çox şükür ki, belə neqativ hallar Sumqayıtda çox azdır. Çünki Sumqayıtı quran və bu şəhərdə tarix yazan bizim nəsil, övladlarını, nəvələrini zəhmətə, təmizliyə öyrədiblər.

**Azərbaycan təhsilində çox böyük xidmətləri olan Sumqayıt Təbiət elmləri təmayüllü gimnaziyanın direktoru, "Tərəqqi" medallı, Əməkdar müəllim Nizami Əhmədov:**



**-Sumqayıt şəhərinə həmişə fəxarətlə baxıram. Bu şəhərin insanları bir-birinə elə doğmadırlar ki, elə bil bir kənddə, bir obada böyüyüblər. Məhz ona görə də bu şəhərdə böyük birlik, mehribançılıq var. Hamı bir-birinin sevincinə sevinir və kədərinə şərik olurlar. Mən özümü bu şəhərsiz heç cür təsəvvür edə bilmirəm.**

**Bax, cənab prezidentimiz İlham Əliyevin də Sumqayıta əvvəlki gəlişləri kimi bu gəlişi də böyük bir bayram oldu. Həmin gün sumqayıtlılar bir-birini bu** bayram münasibətilə təbrik edirdilər. Mən çox inanıram ki, Ali Baş Komandanımızın, Qarabağın xilaskarının, ölkə başçımızın Sumqayıta bu gəlişi şəhərin mədəni, təhsil, səhiyyə və sənaye inkişafına yeni bir təkan verəcək. Cənab Zakir Fərəcovun şəhərimizə rəhbərlik etdiyi dövrdə Sumqayıt artıq özünün intibah dövrünü yaşayır və günü-gündən də gözəlləşir. Dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir.

Bu gün Türkiyədə yaşayan azərbaycanlı filosof Əbu Turxan deyir: " Daxilən gözəl olmağın yolu xaricdəki gözəllikləri duymaq, onlara heyran olmaq və onlara qovuşmaqdır. Çünki daxili gözəllik zahiri gözəlliyə bürünəndə daha tez üzə çıxır".

Sumqayıtın da bütün gözəllikləri bundan sonra daha qabarıq üzə çıxacaq və şəhərimiz özünün intibah dövrünün yeni pillələrinə qədəm qoyacaq. Mən, buna öz varlığım qədər inanıram.

**15 nömrəli tam orta məktəbin direktoru, yazıçı, publisist, folklorşünas Elmira xanım Yaqubova:**

-Mən fəaliyyətimi təkcə təhsilə deyil, həm də xalqımızın qədim ədəbiyyatının, mədəniyyətinin, folklorunun tədqiqatına həsr etmişəm. Sumqayıt elə bir şəhərdir ki, heç bir bölgəni təkrarlamadan özünün fədakar insanlarının əlilə, zəhmətilə orijinal tarixini, ədəbiyyatını, incəsənətini, mədəniyyətini yüksək səviyyədə yazır.



Xalqımızın yenilməz sərkərdə oğlu, cənab Prezident İlham Əliyevin doğma məkanımıza bu dəfəki gəlişi də böyük tarixi hadisəyə çevrilib. İnanıram ki, səfər zamanı bünövrəsi qoyulan layihələr uğurla reallaşacaq, yeni istifadəyə verilən sahələr əhalinin rifahına, sağlamlığına, fiziki və mənəvi inkişafına dəyərli töhfə olacaqdır. Eləcə də təhsilimizin inkişafına kömək edəcək.

Qətiyyətlə vurğulayım ki, ölkə rəhbərinin xüsusi diqqət və qayğısı sayəsində, Sumqayıt şəhər İcra Hakimiyyəti başçısı cənab Zakir Fərəcovun Sumqayıta rəhbərlik etdiyi müddətdə şəhərimiz daha gözəl simaya malik olub və gündən-günə inkişaf edir. Bu tərəqqi və inkişaf bizi hədsiz sevindirir. Sumqayıtda yaşayan və müəssisələrdə işləyən insanların həmişə ziyalılara çox böyük hörməti olub və var. Ən əsası sumqayıtlı məktəblilər həmişə təhsil uğurları və ali məktəblərə qəbulu ilə seçiliblər. Ölkədə həmişə birinciliyi saxlayıblar. Respublika və dünya olimpiadalarında qalibiyyəti heç zaman əldən vermirlər.

Deməli, bu şəhərdə yüksək təfəkkürlü insanlar yetişir. Bu gün dünyada ağıllı insanları hamı sevir. Dahi Volter deyib ki, " Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər". Çox sevinirəm ki, bu gün Azərbaycanda da təhsilə böyük önəm verilir.

**Təfəkkür Liseyinin direktoru Qönçə xanım Səftərova:**

**-Mən Sumqayıtda dünyaya göz açmışam. Bu şəhərdə orta məktəbi bitirmişəm. Xarici Dillər Universitetində təhsil almışam. Oxuduğum illərdə və təhsilimi başa vurandan sonra paytaxtda yaşamaq imkanım olsa da, Sumqayıtı çox sevdiyimə görə bu şəhərdə qalmağa üstünlük vermişəm. 1 nömrəli tam orta məktəbdə müəllim kimi əmək fəaliyyətimə başlamışam. Rəhbər olmaq arzusuyla imtahan verib bu şəhərin ən aparıcı liseylərindən birinə direktor təyin edilmişəm. Həmişə və hər yerdə Sumqayıtımızı ürəkdən təbliğ edirəm. Səmimi deyim ki, ölkə** rəhbərimiz İlham Əliyevin şəhərimizə növbəti gəlişi zamanı sevincimdən kövrəldim. Çünki tarixi qələbələrdən sonra onun ilk səfəri Sumqayıta oldu. Bəli, cənab Prezidentimiz Sumqayıtı çox sevir. Çox gərgin iş qrafiki olmasına baxmaya-



raq, Sumqayıtı və sumqayıtlıları unutmamasına, üstünlük və dəyər verməsinə görə Ali Baş Komandanımıza sonsuz təşəkkürümüzü bildirmək istəyirəm.

Mehdi Hüseynzadə adına şəhər stadionu və Sumqayıtın ən böyük səhiyyə ocağı olan 2 nömrəli xəstəxana əvvəllər çox bərbad vəziyyətdə idi. Hətta vaxtilə anam həmin xəstəxanada müalicə olunanda oradakı şəraitsizliyi görmüşdüm. O zaman mən uşaq idim və özü də qış fəsli idi. Hava çox soyuq idi. Hətta xəstəxanada elektrik və istilik sistemi də yox idi. Müalicə olunan xəstələr əziyyət çəkirdilər.

**Stadionda da şərait heç də ürəkaçan deyildi. Həmin stadionun yanında yaşayırdıq və əvvəlki pis şəraitini görmüşdük. Bütün sumqayıtlılar keçən ilin sonundan Ali Baş Komandanımızın Sumqayıta gəlişini səbirsizliklə gözləyirdilər ki, hər iki obyektin açılışı olsun. Məhz 2023-cü il oktyabrın 23-də bu tarixi hadisənin şahidi oduq. Bir sumqayıtlı kimi fəxr ediriəm ki, şəhərimiz gözlərim qarşısında böyüyüb inkişaf edir.** Son illər daha da abadlaşıb, gözəlləşib, müasirləşib. Dünyada analoqu olmayan Sumqayıt Bulvarı hər kəsi heyran edir. Mən şəxsən elə insanlar tanıyıram ki, Bakıda evlərini satıb, şəhərimizdə yaşamaq üçün mənzillər alırlar. Məgər bu, sevindirici hadisə deyilmi? Sumqayıt Xalq şairimiz Nəbi Xəzrinin şeirində deyildiyi kimi,"göylərə meydan oxuyur". Bəli, biz şəhərimizlə fəxr edirik.

**Uzun illər Sumqayıtın iaşə işlərinə böyük uğurla rəhbərlik edənlərdən biri, Sumqayıt şəhər Bələdiyyəsinin üzvü və iqtisadi inkişaf komissiyasının sədri, şəhər Ağsaqqallar Şurasının üzvü, 1966-cı ildən Sumqayıtda yaşayan Fəxrəddin Rəhimov:**



-Bizim ailənin ulu öndər Heydər Əliyevə inamı elə 1969-cu ildən yaranıb. Belə ki, dahi rəhbər o vaxt hakimiyyətə gələndə, həmin il biz üç qardaş pulsuz ali məktəblərə qəbul olmuşuq və təhsil illərində də heç bir müəllimə pul verməmişik. Amma gəlin danmayaq, həmin vaxtlara qədər Azərbaycan təhsilində rüşvət hökm sürürdü. Biliyə heç kim fikir vermirdi. Dahi rəhbər hakimiyyətə gələn kimi bunu təmizlədi və ali məktəblərə yalnız biliklilər, savadlılar qəbul olundu və ali məktəbi bitirəndən sonra da onlar yaxşı mütəxəsisilər olub, ölkəmizin inkişafına təmənnasız lazım olan kimi xidmət etdilər. Hələ tələbəlik illərindən əvvəl də mənim taleyim Sumqayıtla bağlı olub və dahi Heydər Əliyevin Sumqayıta gəldiyi zamanlar da yaddaşıma əbədi həkk olunub. Və Ulu Öndərin hər gəlişindən sonra Sumqayıtın necə sürətlə inkişaf etdiyini də yaxşı görmüşəm.

Sevindirici haldır ki, cənab İlham Əliyev də hakimiyyətə gələn kimi əbədiyaşar Heydər Əliyevin kursunu uğurla davam etdirdi və onun sayəsində Sumqayıt həm sənayedə, həm sosial binaların tikilişində, həm də şəhərin quruculuğunun inkişafında böyük vüsət aldı. Elə Sumqayıt bülvarının mövüzəvi gözəlliyi buna tam sübutdur. Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, məhz cənab Prezidentin böyük dəstəyilə bu şəhəri cənnətməkan elədi və cəmi on bir aya dünyada analoqu olmayan belə bir bulvar saldı. Bu bulvar indi təkcə sumqayıtlıların istirahət yeri deyil, Bakının Sumqayıta yaxın olan qəsəbələri də istirahət etmək üçün məhz bu bulvara gəlirlər. Bu bulvar Bakı bulvarından heç də geri qalmır və dünya bulvarları arasında ən böyük mükafata layiq görülüb. Mən, uzun illərdir ki, Bələdiyyənin üzvü kimi tez-tez sumqayıtlılarla görüşürəm və çox sevindirici **haldır ki, hamı Sumqayıtda gedən quruculuq işlərindən çox razılıq eləyir. İnanıram ki, tezliklə yeni tikilən zavodlar da işə düşəcək və bu şəhərdə işsizlik problemi də tam həll olunacaq. Ulu Öndər deyən kimi " Sumqayıt zəhmətsevərlər şəhəridir".**

**Sumqayıt şəhər, 27 nömrəli tam orta məktəbin direktoru, tarixçi Valid Mustafayev:**

-Ümumiyyətlə, cənab Prezident İlham Əliyevin şəhərimizə hər gəlişi yeni ruh, yeni nəfəs gətirir. Əlbəttə, təkcə istifadəyə verilən və təməlləri qoyulan obyektlərdən söhbət getmir. Həm də in-



**sanlarımızda yeni bir motivasiya, ovqat yüksəkliyi yaranır. Ali Baş Komandanımızın bildiyimə görə, tam qələbəmizdən, 24 saatlıq lokal xarakterli antiterror tədbirindən sonra ilk səfəri məhz Sumqayıt şəhərinə oldu. Bəli, ölkə başçımız** həmişə Sumqayıta və sumqayıtlılara bağlı bir insandır. Bilirsiniz ki, son üç ildə təkcə Qarabağda deyil, həm də beynəlxalq səviyyədə çoxlu məsələni müsbət həll etmək lazım idi. Cənab Prezidentimiz bütün bu işləri qətiyyətlə və böyük uğurla gördü. Və ərazi bütövlüyümüz tam təmin olunandan sonra doğma şəhərimizə gəldi. Bu da təsadüfi deyil. Ulu Öndərin dediyi kimi, "Sumqayıt kiçik bir Azərbaycandır". Qalib Ali Baş Komandanımızın səfəri zamanı bir neçə sənaye müəssisəsinin açılışı, təməlqoyma mərasimi və dünya standartlarına uyğun, yüksək səviyyəli iki mühüm obyektin - stadionunun və 2 nömrəli xəstəxananın açılışı əlamətdar hadisə oldu. Bütün bunlar Sumqayıtımıza çox yaraşır. Bir sumqayıtlı kimi hədsiz sevincliyəm.

Xüsusilə vurğulayım ki, cənab İlham Əliyev şəriksiz liderdir. Ona Allahdan can sağlığı və işlərində daha böyük uğurlar arzu edirəm. Bir tarixçi olaraq bütün baş verən hadisələrə önəm verərək qeyd edim ki, Azərbaycan tarixində son iki yüz otuz ildən çox müddətdə biz torpaqlarımızı itirə-itirə gəlmişdik. İndi ilk dəfə olaraq böyük tarixi qələbə qazanmamız, torpaqlarımızı yağı düşmənlərdən təmizləməyimiz məhz Ali Baş Komandanımızın adı ilə əbədi bağlıdır. O, təkcə Qarabağda müharibə aparmadı və həm də öz ağlı, dərin siyasətilə dünyanın aparıcı ölkə rəhbərləri, siyasətçiləri, jurnalistlərilə döyüşüb qalib oldu. Bununla da tariximizdə adı qalib xalqın qalib lideri kimi qızıl hərflərlə yazıldı. Heç bir silah işlətmədən, Ağdamın, Laçının, Kəlbəcərin, Əsgəranın, Xocalının, Xankəndinin geri qaytarılması isə dünya tarixində analoqu olmayan hadisədir. Bu da hər ölkə başçısının hünəri deyil. Bir vətəndaş və təhsil işçisi olaraq biz də müzəfər Ali Baş Komandanımızın qələbələrinə layiq işlər görməli, şəhərimizi dünyada layiqincə tanıtmalıyıq.

**Ağalar İDRİSOĞLU,**
**Əməkdar incəsənət xadimi,**
**yazıçı-rejissor**